# ƏLİYEV ƏMİRASLAN RZA OĞLU



Əliyev Əmiraslan 30 avqust 1960-cı ildə Naxçıvan şəhərində anadan olmuşdur. 1967-1977-ci illərdə Ü.Hacıbəyov adına Naxçıvan şəhər 1 saylı orta məktəbində oxumuşdur. 1977-1979-cu illərdə Naxçıvan şərabçılıq Zavodunda fəhlə işləmişdir. 1979-1981-ci illərdə SSRİ Silahlı Qüvvələrində xidmətdə olmuşdur. Bir müddət Ukrayna Respublikasında xidmət etmiş, hərbi xidmətini Polşada başa vurmuşdur. Hərbi xidməti başa vurub vətənə geri qayıtdıqdan sonra 1981-1982-ci illərdə Naxçıvan Şüşə Qablar Zavodunda, 1982-1992-ci illərdə isə Vayxır Su-Tikinti İdarəsində fəhlə işləmişdir. İstehsalatda çalışmaqla yanaşı, o, 1982-87-ci illərdə Naxçıvan Dövlət Pedaqoji İnstitutunun tarix-filologiya fakültəsinə daxil olaraq təhsilini davam etdirmişdi. 1992-ci ildə Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Sərhəd Qoşunlarında hərbi xidmətə çağırılmışdır. O, bir sıra məsul vəzifələrdə çalışmış, nümunəvi xidmətlərinə görə baş leytenant Əmiraslan Əliyev qərargahın baş zabiti kimi yüksək vəzifəyə təyin olunmuşdur. Bu vəzifədə xidmət etdiyi müddətdə o, dövlət sərhədinin mühafizəsi sahəsində mühüm işlər görmüş, bir çox sərhəd bölgələrində ciddi qayda-qanun yaradılmasına nail olmuşdur. Verilən tapşırıqları vaxtında və dəqiq yerinə yetirdiyinə, döyüş hazırlığında əldə etdiyi yüksək nəailiyyətlərinə görə baş leytenant Ə.Əliyev hərbi hissə tərəfindən 8 oktyabr 1994-cü ildə Fəxri Fərmanla təltif edilmişdir. 1995-ci ildə bir qrup cinayətkar dövlət çevrilişinə cəhd göstərdiyi zaman baş leytenant Ə.Əliyevə məsuliyyətli vəzifə tapşırılmışdı. O, 1995-ci il martın 17-də bu tapşırığı yerinə yetirərkən dövlətçiliyimizin qorunması yolunda canından keçdi. Naxçıvan şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir. Ailəli idi. Üç övladı var. Azərbaycan Respublikası prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı fərmanı ilə Əliyev Əmiraslan Rza oğluna ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmişdir. “N” sərhəd zastavasında qəhrəmanın “Xatirə otağı” açılmış, və büstü qoyulmuşdur. “N” sərhəd məntəqəsinə Ə.Əliyevin adı verilmişdir.